# İbtidai sinif şagirdlərinin nitqinin qrammatik üslubi xüsusiyyətləri

**Nigar Elşən qızı Muradova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** nigarmurad97@gmail.com

**Rəyçilər:** filol.ü.f.d., dos. T.Ç. Şükürlü,
p.ü.f.d., dos. P.M. Həsənova

**Açar sözlər:** şagird, nitq, vərdiş, qrammatika, müəllim, uşaq, məşğələ, məktəb
**Ключевые слово:** ученик, речь, привычка, грамматика, учитель, ребенок, урок, школа
**Key words:** student, speech, habit, grammar, teacher, child, lesson, school

Müasir məktəbin qarşısında duran ən mühüm ümumpedaqoji problemlərdən biri şagirdlərin nitqini inkişaf etdirməkdir. Çünki dil və təfəkkürün vəhdəti elmə artıq məlumdur. Dil cəmiyyət üzvləri arasında ünsiyyət, fikir mübadiləsi, qarşılıqlı təsir vasitəsidir. Dil öz funksiyasını yalnız nitqdə yerinə yetirir. Dil isə özlüyündə nitqin əsasını təşkil edir. Məktəbəqədər yaşlı uşaq məktəb yaşına çatanadək artıq müəyyən nitq vərdişlərinə yiyələnmiş olmalıdır. Lakin nitq inkişafı dayanmayan bir prosesdir və bu inkişafı dəstəkləmək üçün məktəbdə də məqsədəuyğun sistemli işlər görülməlidir.

İbtidai siniflərdə şagirdlərə sözdən istifadə etməyi öyrətmək, onlara həyatda zəruri olan nitq vərdişləri vermək lazımdır. Hal hazırda ana dili üzrə keçirilən hər bir dərsdə ən mühüm yeri nitq inkişafı üzrə iş tutur. Hər bir məşğələ mahiyyət etibarilə, nitq inkişafı dərsidir. Bu işdə ibtidai sinif müəlliminin məsuliyyəti böyükdür. Müəllim şagirdlərə qrammatik nəzəriyyəni, orfoqrafik vərdişləri mənimsətməklə birlikdə, nitq prosesində sözləri düzgün tələffüz etmək, onları düzgün seçib cümlədə istifadə etmək, cümlə qurmaq, oxuduqları, gördükləri və eşitdikləri haqqında danışmaq, özünün və başqalarının fikrini ifadə etmək bacarıqlarını da aşılamalıdır.

Nitqin 2 növü vardır: şifahi və yazılı. Nitq inkişafı dedikdə müəllimlərin əksəriyyəti şagirdlərin yazılı nitqi üzərində iş aparmağı nəzərdə tuturlar. Onlar hesab edirlər ki, əgər şagird ifadə və inşanı müstəqil yaza bilirsə, onun şifahi nitqi özü inkişaf edəcəkdir. Belə bir yanaşma təbii olaraq yanlışdır. Yüksək nitq inkişafından o zaman danışmaq olar ki, insan nitqin hər iki növünə yiyələnmiş olsun. Aparılan müşahidələr onu göstərir ki, şagirdlərin şifahi nitqində bir sıra nöqsanlar özünü göstərir. Ayrı-ayrı söz və səslər yanlış tələffüz oluna bilir. Nitqin əsas tələbləri gözlənilmir. Qrammatik qaydalara, məntiq və üslub tələblərinə riayət olunmur. Nitqdə sözlər kortəbii olaraq istifadə olunur. Yerli şivə xüsusiyyətlərinə yol verilir və s. Məzmunlu və inamlı, ardıcıl və məntiqli, qısa, düzgün, emosional və ifadəli danışmaq şifahi nitqə verilən ümumi tələblərdir.

Nitq inkişafı özlüyündə çox geniş və mürəkkəb bir sahədir. 1-ci sinifdən başlayaraq şagirdlərin nitq inkişafı üzərində məqsədli olaraq ardıcıl, planlı iş aparılmalı, nitqdəki nöqsanları aradan qaldırmaq üçün onların nitqinə nəzarət edilməlidir. Bu işdə müəllim dilçilik elminin nailiyyətlərinə istinad edərək müxtəlif üsul və vasitələrdən istifadə etməlidir. İbtidai sinif şagirdlərinin nitqini inkişaf etdirmək məqsədi ilə Azərbaycan dili dərslərini tədrisində şagirdlərin lüğət ehtiyatını zənginləşdirilməsi, ünsiyyət bacarıqlarının formalaşdırılması, ən zəruri qrammatik anlayışların və dil konstruksiyalarının mənimsədilməsi, yazı texnikası və yazılı

nitqin, dinləyib-anlama vərdişlərinin inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılmalı və müvafiq işlər aparılmalıdır.

Şagirdin cümlə quruluşunda olan nöqsanlar diqqətdən kənarda qalmamalı müəllim öz nitq nümunəsi və düzəlişləri ilə bu nöqsanları aradan qaldırmalıdır. Müəllimin nitqi hər şeydən əvvəl nümunəvi olmalıdır. Müəllim nitq inkişafı üzrə işini təşkil edərkən valideynlərlə əməkdaşlıq etməli, onlara şagirdlərin nitqinə nəzarət işinin təşkilinə dair lazımı tövsiyələr verməlidir. Nitq üzrə işə, tələffüz qaydalarına bütün dərslərdə, həmçinin sinifdənxaric tədbirlər prosesində də vahid tələblər verilməli, nəzarət edilməlidir. Nitq inkişafı üzrə işlər aparılarkən mümkün qədər çox vasitələrdən, fəal-interaktiv təlim metod və texnikalarından istifadə olunmalıdır. Diqqət olunmalı ən vacib məqam isə şagirdlərdə danışmağa və fikir söyləməyə həvəs oyadılması, onlarda şən əhval-ruhiyyə yaradılmasıdır.

Nitq inkişafı üzrə işin digər ən vacib şərtlərindən biri isə nitq mühitinin yaradılasıdır. Nitq situasiyası yaradarkən müəllim şagirdləri bir növ danışmağa vadar edən vəziyyət yaratmış olur. Nitq situasiyası təkcə metodiki anlayış deyil, həm də linqvistik anlayış kimi özünü göstərir. Linqivistikada bu anlayış əmr, xahiş, təsdiq, rədd, kinayə, istehza və s. kimi təsvir olunur. Bu ifadə vasitələri isə qrammatik situasiya yaradır. Şagirdlərin öz aralarında dialoqları, söhbətləri yeni situasiyada baş verir. Bu obrazlı ifadələrin işlənməsinə də zəmin yaradır. Metodik nitq situasiyasının iki növü vardır: 1) təbii; 2) süni.

Təbii situativ nitq hər hansı obyekt əsasında fikirlərin canlı ifadəsidir. Bu zaman obyekt oxu materialları, şəkillər, təbiət hadisələri üzərində müşahidələr, müxtəlif oyunlar, əyləncələr və s. ola bilər.

Süni situativ nitq müəyyən toplanışlarda, səhnəciklərdə, radio və televiziyada müxtəlif mövzularda çıxışlardır. Süni situasiyada əvvəlcə fikrin tematikası müəyyənləşdirilməli, nitq üçün müəyyən hazırlıq işləri aparılmalıdır.

Nitq inkişafı üzrə aparılan işlərin səmərə verib-vermədiyini şagirdlərin öz fikirlərini rabitəli şəkildə necə ifadə etdikləri ilə aydınlaşdıra bilərik. Bəs rabitəli nitq nədir? Rabitəli nitq deyərkən, şagirdin özünün yaşına və bilik səviyyəsinə görə ətraf aləmi düzgün dərk etməsi və dərk etdiyini qrammatik, üslubi cəhətdən düzgün ifadə etməsi nəzərdə tutulur. Bu baxımdan cümlə və lüğət üzərində aparılacaq iş rabitəli nitqin inkişaf etdirilməsi üçün həm hazırlıq mərhələsi hesab olunur, həm də onun mühüm şərtlərindən biridir. Əgər şagird fikrini ifadə edərkən ardıcıl və məntiqi şəkildə bu və ya digər sözü yerində istifadə etməzsə yaxud cümlələri düzgün qurmazsa, onun nitqi rabitəli hesab oluna bilməz.

Rabitəli nitq üzərində işə şagirdin məktəbə gəldiyi ilk gündən başlanmalıdır. Şagirdlər əlifba təlimi dövründə şəkillər əsasında ayrı-ayrı söz, cümlə və mətnlərin məzmunu ilə əlaqədar cümlələr qurur, danışır, mətnin məzmununa əlavələr edirlər. Suallara cavab üzrə iş şagirdləri müstəqil yazılara , rabitəli nitqin əsas növləri olan inşa və ifadə yazmağa hazırlayır. İfadə və inşalar mürəkkəb çalışma və iş formalarıdır. Onlar şagirdlərin təfəkkür fəallığını və müstəqilliyini artırmaqda mühüm rol oynayırlar. Elə buna görə də orta məktəbdə Azərbaycan dili və ədəbiyyat tədrisinin ən mühüm vəzifələrindən biri şagirdləri ifadə, inşa yazmaq vərdişlərinə yiyələndirmək hesab olunur.

On ildən artıq müddətdir ki, ibtidai siniflərdə tətbiq olunan yeni məzmun - Kurikulum təlimində şagirdlərin rabitəli nitqinin inkişafı məqsədilə ifadə və inşalarla yanaşı, esse təliminə də geniş yer verilir. Azərbaycan dilindən dərslik və metodik vəsaitlərdə, fənn kurikulumunda esse yazılara xüsusən diqqət yetirilir. İnşa ilə müqayisədə essenin mövzusu daha konkret olur və çox vaxt burada motivasiya xarakterli situasiya ilə verilir. Rabitəli nitq üçün diqqət edilməsi vacib olan məsələlərdən biri şagirdlərin hazır kitab cümlələrini əzbərləməməsi, fikrini müs-

təqil, sərbəst şəkildə ifadə edə bilməsidir. Onun yazısında, danışığında öz üslubu, ruhu hiss olunmalıdır.

Nitq inkişafı üzrə işin təşkilinə və nitq mədəniyyətinin fomalaşmasına xidmət edən digər vacib məsələ dil qaydalarının mənimsənilməsidir. Dil qaydalarını öyrənə şagird sözlərin düzgün yazılışında çətinlik çəkməyəcək, onu yüzlərlə sözə tətbiq edə biləcəkdir. Uşağın ilk cümləleri qrammatik baxımdan natamam, qeyri-ardıcıl olur. O başa düşmədiyi səs komplekslərini eşitdikdə onları təkrarlamağa çalışır. Leksik mənası üzərində isə daha sonra düşünməyə başlayır. Müəllim şagirdin nitqinin ifadəliliyini, düzgünlüyünü, müxtəlif çalarlığını qiymətləndirməyi bacarmalıdır. İbtidai siniflərdə dil qaydaları üzrə aparılan işlər əsasən aşağıdakılardan ibarətdir:

— Nitq hissələri vasitəsilə şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi;
— Nitq hissələri vasitəsilə şagirdlərin oxu vərdişlərinin təkmilləşdirilməsi;
— İntonasiya və vurğu bacarıqlarına diqqət yetirilməsi;
— Orfoepik vərdişlərin təkmilləşdirilməsi;
— İfadə mətnləri üzrə nitq inkişafı bacarıqlarının inkişaf etdirilməsi;
— Rabitəli nitq bacarıqlarının inkişaf etdirilməsi;
— İnşa mətnləri üzrə nitq inkişafı bacarıqlarının inkişaf etdirilməsi.

Azərbaycan dili dərslərinin tədrisi nəticəsində şagirdlər qrammatikanın əsaslarını mənimsəməli, yazılı və şifahi nitqə dair möhkəmlənmiş vərdişlər qazanmalıdırlar. Qrammatikanın tədrisi zamanı onların nitqini inkişaf etdirmək, lüğət ehtiyatlarını zənginləşdirmək, qiraət vərdişlərini təkmilləşdirmək, düzgün və ifadəli tələffüzün formalaşmasını, rabitəli nitqə yiyələnmələri təmin etmək üzrə işlərə geniş yer verilməlidir. Nitq inkişafı üzrə işləri təşkil edərkən mövzular müəllim və şagirdlərin qarşılıqlı razılaşması əsasında seçilir. Məsələn, ailə idman, məktəb, sevimli əşyalar, əyləncəli oyunlar, şəhər, kənd, metro, arzu, dəniz, tarla və s. Seçilmiş mövzularla bağlı müxtəlif cümlələr qurulur. Bu işi I-II siniflərdə şəkillər üzərində də aparmaq olar.

Dil qaydalarının tədrisi prosesində nitq inkişafı üzrə işin təşkili üçün bəzi çalışma növlərindən istifadə olunması mühüm rol oynayır. Bu çalışmalar fonetik-orfoepik, fonetik-leksik, fonetik-orfoqrafik, lüğət-məntiqi, leksik-morfoloji, leksik-qrammatik, leksik-sintaktik, morfoloji-orfoepik, morfoloji-orfoqrafik, morfoloji-sintaktik çalışmalardır. Nitq inkişafı üzrə işin təşkili zamanı əyanilikdən istifadə böyük səmərə verir. Təlimin ilkin mərhələlərində əyani vəsait olaraq əşyalara geniş yer verilir. Didaktik oyunlardan istifadə də həmçinin nitq inkişafı üçün faydalı vasitələrdən hesab olunur. Dil qaydaları oyun prosesində daha asan və maraqla qavranılır. Dərsin bütövlükdə oyun şəklində təşkil olunması, ya da dərsə müəyyən oyun elementlərinin daxil edilməsi keçirilən mövzudan asılı olur.

Azərbaycan dili dərslərində nitq inkişafı ilə bağlı keçirilən ən maraqlı bəhslərdən biri də sintaksisdir. Sintaksis və morfologiya ilə əlaqəli keçirilən leksik-qrammatik çalışmalar həm sözün leksik mənası ilə qrammatik mənası arasındakı fərqi anlamağa imkan verir, həm də şagirdlərin lüğətini zənginləşdirir, nitqini inkişaf etdirir. Nitq inkişafının əsas məsələlərindən biri də cümlə üzərində işdir. Uşaq dil açdığı zamandan onun cümlə haqqında praktik bacarıq və vərdişləri yaranır. Savad təliminə hazırlıq mərhələsində dövründə şagirdlər, nitqdə cümlələri ayırmağı, cümlədə sözlərin sayını , ardıcıllığını müəyyənləşdirməyi öyrənirlər.

İbtidai sinif şagirdləri cümlə qurmaq vərdişlərinə iki yolla yiyələnirlər: 1) tanış sözlərdən özləri cümlə qurur, 2) böyüklərin danışığından, müxtəlif informasiya mənbələrindən hazır cümlələri əzbərləyib işlədirlər. Cümlə üzrə işin yolları çoxcəhətli və müxtəlifdir: suallara cavab, suallar əsasında cümlə üzvlərinin izahı, buraxılmış sözləri yerinə qoymaqla cümlələri ta-

mamlamaq, cümləni genişləndirmək, dağınıq verilmiş sözlərdən cümlələr qurmaq, söz birləşmələri tərtib etmək və onları cümlələrdə işlətmək, 2-3 cümləni bir sadə geniş və ya mürəkkəb cümlə şəklində birləşdirmək, cümlədə bu və ya digər sözü, qrammatik formanı başqası ilə əvəz etmək, verilmiş mətndən obrazlı ifadələri seçib onları başqa cümlə içərisində işlətmək, cümlədə sözlər arasında əlaqəni müəyyənləşdirmək, verilmiş model əsasında müxtəlif sintaktik quruluşda cümlələr qurmaq, mənanı saxlamaqla cümləni başqa formada ifadə etmək, dil qaydalarında öyrənilmiş dil faktının, qrammatik formanın işləndiyi cümlələri seçib yazmaq, verilmiş sözləri müxtəlif qrammatik formada işlətməklə cümlə qurmaq və s.

İbtidai sinif şagirdlərinin nitqində özünü göstərən çətinliklərdən biri də səslərin düzgün tələffüzü ilə bağlıdır. Prof. Y.Ş. Kərimov qeyd edir ki, uşaqlar səs mədəniyyətinə, əsasən, ünsiyyət prosesində yiyələnirlər. Nitq səslərinin düzgün tələffüz olunmaması savad təlimində şagirdlərin ciddi çətinliklərlə qarşılaşmasına səbəb olur. M.A. Rıbnikova tələffüz texnikası məşğələləri üçün xüsusi vaxt ayırmağı tövsiyə edirdi. İnkişaf etməmiş, qeyri dəqiq nitq səslərinin qarışdırılması, aydın olmayan diksiya, sait və samitlərin kifayət qədər ayrılmaması ilə fərqlənir. Nitq üzərində iş fonetik dəqiqliyin inkişafını öz qarşısında bir vəzifə kimi qoymalıdır. Şagirdlərin nitq nöqsanlarının müəyyənləşdirilməsində və aradan qaldırılmasında şeir, tapmaca, saymaca və yanıltmacların söylənilməsindən istifadə etmək vacibdir. Düzgün tələffüz və nitq normalarını bir və ya bir neçə dərsdə öyrənmək mümkün deyil. Bu uzun bir prosesdir və bütün təlim illəri müddətində diqqətdən kənarda qalmamalıdır.

**Məqalənin aktuallığı.** Hal-hazırda hər bir pedaqoji heyətin qarşısında duran əsas məsələlərdən biri də şagirdlərin nitqini inkişaf etdirməkdir. Hamımıza məlumdur ki, dil cəmiyyət üzvləri arasında ünsiyyət, fikir mübadiləsi, qarşılıqlı təsir vasitəsidir və o, öz funksiyasını yalnız nitqdə yerinə yetirir. Doğrudur, məktəbəqədər yaşlı uşaq məktəb yaşına çatanadək artıq müəyyən nitq vərdişlərinə yiyələnmiş olur. Amma unutmamalıyıq ki, nitq inkişafı dayanmayan bir prosesdir və bunun üçün məktəbdə də sistemli işlər görülməlidir. Məqalənin də aktuallığı onun məhz bu kimi vacib problemə həsr olunmasındadır.

**Məqalənin elmi yeniliyi.** Məqalədə ibtidai siniflərdə şagirdlərə sözdən istifadə etməyi öyrətmək, onlara həyatda zəruri olan nitq vərdişlərini aşılamaq, şagirdlərin şifahi və yazılı nitqində yarana bilən neqativ halları dəf etmək sahəsində görülməsi vacib hesab olunan məsələlərə toxunulur, şagirdin cümlə quruluşunda olan nöqsanlarını vaxtında aradan qaldırmaq üçün müəyyən tövsiyələr verilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası ümumtəhsil məktəbləri üçün (I-IV siniflər) ana dili kurikulumu. Bakı, 2007.

2. İbtidai siniflər üçün "Azərbaycan dili" dərslikləri və "Müəllimlik üçün metodik vəsait". Bakı, 2016.

3. Рыбникова М.А. Очерки по методике М.: Просвещение, 1963.

**Н.Э. Мурадова**

## Грамматико-стилистические особенности речи младших школьников

### Резюме

Одна из основных задач, стоящих сегодня перед каждым педагогическим коллективом, - это развитие речи студентов. Все мы знаем, что язык - это средство общения, обмена идеями, взаимодействия между членами общества, и свою функцию он выполняет только в речи. Действительно, к школьному возрасту дошкольник приобретает определенные речевые навыки. Но нельзя забывать, что развитие речи - это непрерывный процесс, и для этого в школе необходимо проводить систематическую работу.

В статье рассматриваются вопросы, которые важны для обучения школьников словесному использованию в начальной школе, привития им необходимых речевых навыков в жизни, преодоления негативных ситуаций, которые могут возникнуть в устной и письменной речи учащихся, а также даны некоторые рекомендации по своевременному исправлению дефектов предложений учащихся.

**N.E. Muradova**

## Grammatical and stylistic features of the speech of primary school students

### Summary

One of the main issues facing every teaching staff today is to develop students' speech. We all know that language is a means of communication, exchange of ideas, interaction between members of society, and it performs its function only in speech. It is true that a preschooler acquires certain speech skills by the time he reaches school age. But we must not forget that speech development is a continuous process, and for this, systematic work must be done at school.

The article addresses issues that are important to teach students to use words in primary school, instill in them the necessary speech skills in life, to overcome the negative situations that may arise in students' oral and written speech, and gives some recommendations for timely elimination of shortcomings in student sentence structure.

**Redaksiyaya daxil olub:** 25.11.2020